# İnternet resurslarında folklorun təcəssüm olunma vasitələri

**Günay Mətləb qızı Həsənova**
*AMEA Folklor İnstitunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** gunay_yusifzade@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. F.X. Bayat,
filol.ü.f.d., dos. Ç.A. Əfəndiyeva

**Açar sözlər:** folklor, internet-folklor, virtual folklor, folkloru təcəssüm etdirmək yolu
**Ключевые слова:** фольклор, интернет-фольклор, виртуальный фольклор, способ признания фольклор
**Key words:** folklore, internet folklore, virtual folklore, the method ofrecognition of folklore

Bir xalqın yaşamı və ya məhvi onun tarixi ilə, onun folkloru ilə bağlıdır. Tarixi, folkloru olmayan xalq mövcud ola bilməz təbii ki. Tarixin süzgəcindən keçib bu günə kimi bizlərə miras qalan folklorumuz əslində elə xalqın taleyidir. Hər bir xalqın taleyi isə onun keçdiyi inkişaf yoludur. Bu yolda folklor özü hansı nailiyyətlərə imza atıb, hansı dəyişikliklərlə mövcud olub, ümumən folklorun mövcudluğunun nədə olması taleyinə yazılan yazılarla bəlli olur. Min əsrlər keçsə də bu gün folklorun mövcud olma şəraiti dəyişib, forma və məzmun cəhətdən yenilənib, lakin ənənəyə sadiqliyi itməyib. Ənənəyə sadiqliyi müasir folklor nümunələrini təhlil edərkən şahidi oluruq.

Amerika Folklor Cəmiyyətinin veb saytında folklorla bağlı verilmiş təriflərə diqqət edək. Bencamin A. Botkin 1938-ci ildə yazmışdır: «Folklor ticarət və təhsil vasitəsindən kənarda, əsasən, şifahi tərzdə vüsət alan ənənəvi inanc, adət və ifadədir. Hər bir qrup təhsilli və ya təhsilsiz, şəhərli və ya kəndli olmasından asılı olmayaraq, ümumi maraq və məqsədlərlə bir-birinə bağlanır ki, bu da folklor adlanır. Bu adət və ənənələrə bir çox şeylər daxildir: fərdi, məşhur, hətta ədəbi. Amma bunların hər biri təkrarlar və dəyişikliklər vasitəsi ilə model halına salınmış və uyğunlaşdırılmışdır ki, bunun da qrup üçün xüsusi dəyəri var (6, s. 17).

“Folklor gerçəkliyin söz, musiqi, hərəkət (jest), eləcə də xalq yaradıcılığının digər sahələrinin sənət kodları vasitəsilə ifadə olunduğu milli düşüncə layıdır. Ədəbiyyat ifadəsi altında başa düşülən xalq yaradıcılığının söz sənəti onun çoxsaylı ifadə vasitələrindən biri, milli təfəkkürün özünü realizasiya instrumentidir” (4, s. 5).

“Folklor – həm də şifahi ənənədə mövcud olan ədəbiyyatdır. Çünki folklorun reallaşma vasitələrindən biri poetik sözdür. Lakin folklor sözü ilə yazılı ədəbiyyatın sözü arasında çox ciddi fərqlər vardır və həmin fərqlər folkloru və ədəbiyyatı mədəniyyətin ayrı-ayrı sferaları kimi üzvləndirir” (6, s.15).

İnternet resurslarında folklorun təcəssüm olunma vasitələri rəngarəngdir. Bu gün internet folkloru araşdırılarkən folklorun təcəssüm olunma vasitələri əslində ənənəvi folklorda mövcud vasitələrə uyğundur. Təbii ki, yeni təcəssüm olunma vasitələri də vardır və bu vasitələrlə yaranan və yayılan folklor mətnləri də üstünlük təşkil edir. Əgər folklor mövcuddursa, o mütləq şəkildə ənənə üzərində qurulur. Ənənədən kənarda folklor bir mahiyyət kəsb etməz. Folklorun da ən mühüm prinsiplərindən biri ənənəvilikdir və ənənəyə bağlılıqdır. Sadəcə olaraq ənənəvi folklordan fərqli olaraq virtual folklorda mövcudluq müasir dövrün tələbləri çərçi-

vəsində reallaşır.

Hazırkı dövrdə insanlar sosial şəbəkələr, forum, müxtəlif mobil platformalar və s vasitəsilə qarşılıqlı əlaqəyə girdikləri üçün internet ənənələrin meydana çıxdığı və ya yarandığı ayrıca bir məkan və ya sahə kimi özünü göstərir (3, s. 22).

Gənc alim Hikmət Quliyevin ənənəvi folklordan virtual folklora keçid prosesində şifahilik prinsipi ilə bağlı təhlillərindən yekun olaraq gəldiyi nəticə belədir: "Həm telefon mesajları, həm forum və sosial şəbəkə yazışmaları, həm də e-mail – elektron məktublar, əslində şifahi ünsiyyət modelində, şifahi təfəkkür və nitq qəlibləri şəklində formalaşır. Tədqiqatçının fikrinə görə xalq biliyi folklor, şifahi və yazılı formada olmaqla bərabər, rəqəmsal texnologiyalar – şəkil, foto, video, qrafik işarə, simvol və s. vasitəsi ilə də təcəssüm oluna bilər. Müəyyən bir informasiyanın, biliyin folklorik mahiyyəti onun forması ilə deyil, məzmunu, kollektiv emosiya və reaksiyaya söykənməsi, ənənəvi qəlib və fikrin ifadə modellərinə əsaslanması və s ilə bağlıdır. Bu mənada virtual məkanda söz, şəkil, foto montaj, qrafik işarə, animasiya və s vasitəsilə təqdim olunan faktların formasına (yəni təqdim olunma vasitəsinə) deyil, həmin biliyi, baxış və ya reaksiyanı ortaya qoyan təfəkkürün təbiətinə baxmaq daha doğrudur (5, s. 269)

İnternet məkanında mətn, şəkil, video, simvol, təsvir və s formada təqdim olunan folklor mətnlərinin müəllifinin kim olması bəlli deyil. Lakin bu nümunələri təhlil edərkən hər birində ənənəvi folklora xas xüsusiyyətləri aşkar etmək mümkündür. Ən əsası isə bu nümunələr kollektiv düşüncə məhsulu kimi diqqəti cəlb edir. Lakin internet resurslarında şəkil və ya animasiya formasında təqdim olunan nümunələrin informasiya kommunikasiya texnologiyalarının güclü inkişafı nəticəsində mövcud proqramlar vasitəsilə dəyişdirilməsi mümkündür. Eyni bir qəlib və ya süjet fərqli situasiyalarda gündəmə gəlir ki, bu da folklorun variantlılıq prinsipinin formalaşmasında zəmin rolunu oynayır. Həm ənənəvi, həm də internet folkloruna xas olan prinsiplər, xüsusilə variantlılıq prinsipinin mahiyyətinə "Ənənəvi folklordan virtual folklora keçid prosesində prinsiplər və atalar sözlərində bu prinsiplərin təzahürü" adlı məqaləmizdə geniş aspektdə toxunulmuşdur.

Bu fikirlər əsasında qeyd etməliyik ki, internet resurslarında folklorun təcəssüm olunma vasitələrinə nəzər yetirdikdə onun ənənəvi folklordakı ekvivalentinə toxunmağı zərurətə çevirir. Yalnız o halda mükəmməllikdən danışmaq olar ki, orada bir tədqiqat və ya fikir müqayisəli şəkildə təqdim olunsun. Ayrıca virtual folklorun internet resurslarında təcəssüm olunması ilə bağlı fikirləri bilmək üçün araşdırmanı müqayisəli metod üzərində qurmuşuq. Əgər şifahi ədəbiyyatda, ənənəvi folklorda hər hansı fikrin təcəssüm olunması söz, səs və ya hərəkət vasitəsilə ifadə olunurdusa, virtual aləmdə, internet mühitində folklorun təcəssüm olunması birbaşa olaraq virtual mühitin tələblərinə uyğunlaşmışdır. Belə ki, virtual folklorda hər hansı bir folklor mətni yaranırsa və ya internet mühitində reallaşırsa bütün hallada rəqəmsallaşdırılmaqla təzahür olunur. Folklor mətni internetdə yazı, şəkil, animasiya, video, qrafik işarə, fotomontaj, caps və bir sözlə hazırki dövrün tələblərinə uyğun şəkildə təcəssüm olunur. Lakin birmənalı qeyd etməliyik ki, harada və necə təcəssüm olunmasından asılı olmayaraq hər bir mətn folklorik, kollektiv düşüncənin məhsulu kimi çıxış etməlidir. Hər hansı bir mətnin qrafik işarə ilə və ya yazılı şəkil formasında internet mühitində formalaşması onun folklorik mahiyyətinə təsir edə bilməz. Kifayət qədər belə qrafik işarə və eyni zamanda yazılı şəkillərlə internet resurslarında paylaşılan nümunələrin folklor mahiyyətli olduğunun şahidi ola bilərik. Hətta bu nümunələr daha çox məşhur simaların dilindən təqdim edilir.

Virtual folklorun ifa modelində isə məsələlər tamamilə yeni bir məna kəsb edir. Belə ki, ənənəvi folklor ifaçılığından fərqli olaraq, virtual folklor "üz-üzə" deyil, virtual kommunikasiya modelində aktuallaşır: Əvvəllər üz-üzə və nəsildən nəsə inkişaf edən və dəyişən folklor

nümunələri internet vasitəsilə uzaqdan-uzağa və fərddən fərdə ötürülmə şəklinə düşmüşdür (1, s. 14).

Professor Füzuli Bayat, virtual folklorun ən tipik nümunəsi olan internetin geniş istifadəçi kütləsi üçün nəzərdə tutulduğu, belə olduqda isə informasiyanın unifikasiya edilmiş formada verilməsini bildirərək qeyd edir ki, “Virtual folklor söz, səs, yazı, şəkil, sxem, foto, animasiya və s formalarda təzahür edir. Ənənəvi folklorda isə bu təzahürlərdən yalnız söz və qismən də səs fəaldır. Bu bir daha virtual folklorun geniş spektrli yönündən xəbər verir” (2, 45).

Virtual folklorda rast gəlinən simvollaşdırma modellərindən biri kimi uşağın leylək tərəfindən gətirilməsi ilə bağlı situasiyanın təsvirinə həsr olunan, zərərli vərdişlərin insanın həyatının, sağlamlığının ciddi təhlükə altında qalmasına işarə edən şəkillər diqqəti cəlb edir. Eyni zamanda istənilən mövzu ilə bağlı kifayət sayda nümunələr təqdim etmək olar ki, onların hər birindəki dərin mənalı yük insan düşündürməyə bilmir. Hətta real həyatda baş verən ədalətsizliklər, haqqın tapdalanması, güclünün zəifi əzməsi faktları ilə bağlı məsələlərə hər zaman folklor nümunələrində toxunulmuşdur. İnternet resurslarında isə bununla bağlı həm foto, həm də yazılı şəkillər mövcuddur. Hansı ki aşağıdakı nümunələr folklorun şəkil formasında təcəssüm olunma vasitəsidir.








Ənənəvi folklor nümunələrindən fərqli olaraq virtual folklor faktları texnoloji əsaslı mühitdə meydana çıxdığından burada rəqəmsal simvollaşdırma modellərindən istifadə olunur. Dəyişən məhz həmin o psixoloji gerçəkliyin mədəni gerçəklikdə simvollar əsasında təzahürünün əyaniləşməsi, maddiləşməsi formasıdır. Əgər ənənəvi yaradıcılıq modellərində bu proses sözlər, metaforik ifadələr, bir sözlə, mədəniyyətin “icazə verdiyi” ənənəvi formalar əsasında təzahür edirdisə, bu gün həmin ehtiyac və tələbat yeni bir alətlər – rəqəmsal texnologiyaların verdiyi imkanlar hesabına baş verir (5, 308).

Aparılan təhlillərdən məlum olur ki, rəqəmsal texnologiyaların verdiyi imkanlar hesabına internet resurslarında folklorun təcəssüm olunma vasitələri folklorun daha da zəngin formada təzahür olunmasına gətirib çıxarmışdır. Bu gün internetin sürətlə inkişafı və həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilməsi folklorun da geniş yayılmasına və inkişaf etməsinə kömək edir. Sadəcə olaraq ənənəvi folklordan fərqli olaraq müasir folklorun yaranmasına təkan verən amil texnoloji imkan hesabına təmin edilir. Sosial şəbəkə istifadəçiləri arasında gənc nəslin üstünlük təşkil etməsi və folklor nümunələrinin qrafik işarə, simvol, təsvir və ya foto formasında təqdim edilməsində onların rolunun olması danılmaz faktdır və təbii ki bu fakt folklorun daima gündəmdə olmasını şərtləndirir.

**Məqalənin aktuallığı**. İnternet resurslarında folklorun təcəssüm olunması hazırda da aktuallığını qoruyur. Belə ki, bu gün də hər bir kəs folklor nümunələrinə istinad etməklə, müəyyən situasiyalarda həmin nümunələrdən istifadə etməklə onun canlı və aktual olmasını şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə folklorun ənənəvilik prinsipi əsasında ənənəvi folklorla virtual folklorda təzahür edən məqamların xüsusiyyətləri çərçivəsində internet resurslarında meydana gələn folklor nümunələri tədqiqata cəlb edilmişdir. Ümumən folklora dair hər

bir məsələ tədqiqata cəlb edilərkən müqayisəli təhlil metodundan yanaşılmaq qarşıya məqsəd kimi qoyulmuşdur. İnternet resurslarında folklorun təcəssüm olunma vasitələri təhlil edilərkən həm ənənəvi, həm də virtual folklorda təzahürü diqqət mərkəzinə çəkilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Sözügedən məqalədə hər iki folklora aid təcəssüm olunma vasitələrinin müqayisəli təhlili folklorun hansı dəyişikliklə inkişafına da diqqəti cəlb edir. İnternet resurslarında informasiya kommunikasiya vasitələrinin sürətli inkişafı nəticəsində folklorun təcəssüm olunma vasitələrinin hər birinə dair nümunələr verilməklə izah edilmişdir. Məqalədə virtual folklorun ifa modeli ilə bağlı aparılan tədqiqatlardan istinadların verilməsi də bu barədə daha dərindən məlumatlı olmağa kömək edir.

## Ədəbiyyat

1. Baki, Zeyneb S. İnternet folkloru/netlore bağlamında sözlü kültürün dönüşümüne netnografik yaklaşımlar: Katılımcı sözlük örnekleri (Yüksek Lisans Tezi). Gazi Universitesi Sosyal Bilimler Enstitüsü. 2014.

2. Bayat Füzuli, 2018, “Folklordan postfolklora”, Folklorşünaslıq: problemlər, tədqiqlər // Dədə Qorqud, 2018.

3. Bronner, Simon J. Digitizing and Virtualizing Folklore. Folklore and the İnternet. Utah State University Press, Logan, Utah, 2009.

4. İsmayılov Hüseyn, Folklor: aksiom və absurd arasında, Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XX cild. Bakı: Səda, 2006.

5. Quliyev Hikmət, Folklorun funksional strukturu, multidissiplinar kontekst, Sərxan Xavəri, Səfa Qarayev, Bakı: Elm və təhsil, 2016.

6. Rzasoy Seyfəddin, Mifologiya və Folklor: Nəzəri-Metodoloji Kontekst. Bakı, 2008.

**Г.М. Гасанова**

## Способ признания фольклора в Интернет-ресурсах

### Резюме

В статье использованы образцы фольклора, появившиеся в интернете как часть особенностей традиционного фольклора и виртуального фольклора, основанного на традиционном принципе фольклора. В целом, каждый вопрос фольклора вовлечен в исследования, и он предназначен для использования подхода сравнительного анализа. Анализ фольклорных воплощений в Интернет-ресурсах сфокусирован как на традиционном, так и на виртуальном фольклоре.

Сравнительный анализ обоих фольклорных воплощений в этой статье также обращает внимание на изменения в фольклоре. В результате быстрого развития информационных и коммуникационных ресурсов в Интернете были объяснены примеры каждого из фольклорных воплощений. Предоставление ссылок в статье на исследование модели исполнения виртуального фольклора также помогает нам лучше понять это.

**G.M. Hasanova**

## The method of recognition of folklore on the internet resources


### Summary

The article draws on folklore patterns that have emerged on the internet as part of the peculiarities of traditional folklore and virtual folklore based on the traditional principle of folklore. As a whole, every issue of folklore is involved in research, and it is intended to use a comparative analysis approach. When analyzing the means of expressing folklore in Internet resources, the focus is on both traditional and virtual folklore.

The comparative analysis of both folklore embodiments in this article also draws attention to the changes in folklore. As a result of the rapid development of information and communication resources on the Internet, examples of each of the folklore embodiments were explained. References to the article on the study of the virtual model of folklore also help us to become more aware of this.


**Redaksiyaya daxil olub:** 02.06.2020